

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 1 (21.662)

2 yanvar 2017-ci il, bazar ertəsi

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Dövlət-xalq-ordu birliyi əsgər və zabitlərin döyüş ruhunu artırır

## “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasına bayram sovqatı aparılmışdır





Ötən əsrin 90-cı illərində ümummilli liderimiz Heydər Əliyev tərəfindən Naxçıvanda əsası qoyulan müstəqil dövlətçilik və həmrəylik ideyası Azərbaycanda inkişafın əsas hərəkətverici qüvvəsinə çevrilmişdir. Dahi şəxsiyyətin siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün ölkəmizdə digər sahələrlə yanaşı, ordu quruculuğu istiqamətində də ardıcıl tədbirlər görülür, dövlət-xalq-ordu birliyi möhkəmlənir. Bu birlik və həmrəylik müstəqil Azərbaycan ordusunun qüdrətini və şəxsi heyətin döyüş ruhunu artırır. Bu gün Silahlı Qüvvələrimizin Naxçıvan Muxtar Respublikasında yerləşən ordu, birləşmə və hissələri güclü maddi-texniki bazaya və peşəkar şəxsi heyətə malikdir. Yaradılan şərait muxtar respublikada dövlət sərhədlərinin etibarlı müdafiəsinə təminat verir.



Dekabrın 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasına gəlmiş, əsgər və zabitlərlə görüşmüşdür.

“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-mayor Asəf Quliyev Ali Məclisin Sədrinə raport vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov əsgərləri salamlamış, onları Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik edərək demişdir: Bu gün ölkəmizdə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı müxtəlif tədbirlərlə qeyd olunur. Bu tədbirlər sırasında xalq-ordu birliyinin ifadəsi olan əsgərlərlə görüşlərin keçirilməsi xüsusi yer tutur. Dövlət müəssisə və təşkilatların kollektivləri, vətəndaşlar hərbi hissələrdə olur, əsgər və zabitlərin bayramlarını təbrik edərək həmrəylik nümayiş etdirirlər.

Ali Məclisin Sədri bu tədbirlərdə iştirak edən hər bir kəsə təşəkkür edərək demişdir: Bu gün ölkəmizdə xalq-ordu birliyi vardır. Hər bir hərbi qulluqçu bilməlidir ki, onun arxasında Azərbaycan xalqı dayanıb. Xalqımız isə əmindir ki, ordumuz sərhədlərimizi etibarlı qoruyur. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən ordu, birləşmə və hissələrinin şəxsi heyəti də xidməti vəzifələrini layiqincə yerinə yetirirlər.

Ali Məclisin Sədri muxtar respublikada xidmət edərək ölkəmizin sərhədlərini və ərazi bütövlüyünü qoruyan bütün hərbi qulluqçulara təşəkkür etmiş, onlara bayram təbriklərini çatdırmışdır.

Əsgər Ümid Rəhimov və zabit Sunay Əsədov şəxsi heyət adından minnətdarlıq etmişlər. Qeyd olunmuşdur ki, muxtar respublikada həyata keçirilən geniş quruculuq işləri “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasını da əhatə etmişdir. Əsgər və zabitlər üçün müasir xidmət şəraiti yaradılmış, yeni sərhəd zastavaları tikilərək istifadəyə verilmişdir. Şəxsi heyətin peşəkarlıq səviyyəsi ilbəil yüksəldilir. Bu gün muxtar respublika sərhədlərində xidmət nümunəvi təşkil olunub. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş hərbi hissədə xidmət etmək hər bir sərhədçi üçün ikiqat qürurdur. Çıxış edənlər şəxsi heyət adından söz vermişlər ki, bundan sonra da sərhədlərimizi etibarlı qoruyacaqlar.

Ali Məclisin Sədri şəxsi heyətə bayram hədiyyələri təqdim etmiş, onlara xidmətdə uğurlar arzulamışdır.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının xəstəxanasında da olmuş, burada müalicə olunan əsgərlərlə görüşmüş, onlara göstərilən tibbi xidmətlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasında vaxtlı-vaxtında profilaktik tədbirlər görülür, hərbi qulluqçular mütəmadi tibbi müayinədən keçirilir. Xəstəxananın lazımi dərman vasitələri və tibbi ləvazimatlarla təminatı müayinə və müalicənin düzgün təşkilinə imkan verir. Burada xəstələrin qidalanması xüsusi nəzarətə götürülür və gigiyenik qaydalara tam əməl olunur.

Ali Məclisin Sədri xəstəxanada müalicə olunan hərbi qulluqçuların bayramlarını təbrik etmişdir.

Həmin gün “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının anbarına 5 tona yaxın ərzaq məhsulu – çörək, ət, şəkər tozu, qənd, yarma, qatılaşdırılmış süd, yumurta, o cümlədən yun corab, siqaret və şəxsi təmizlik vasitələri təqdim olunmuş, şəxsi heyətə 500-ə yaxın hədiyyə paketi verilmişdir.

## “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının hərbi şəhərciyində yeni uşaq bağçası istifadəyə verilmişdir





Muxtar respublikada hərbi hissələrin döyüş qabiliyyətinin yaxşılaşdırılması ilə yanaşı, zabit-gizir ailələrinin sosial məişət şəraitinin yaxşılaşdırılması da diqqət mərkəzində saxlanılır. Hərbi şəhərciklərdə yeni yaşayış binaları, sosial obyektlər, xidmət sahələri, məktəb binaları və uşaq bağçaları tikilərək istifadəyə verilir.

Dekabrın 31-də “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının hərbi şəhərciyində yeni uşaq bağçası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, binada yaradılan şəraitlə tanış olmuşdur.

Ardı 2-ci səhifədə





Məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan bağça 72 yerlikdir. Binada yataq və yemək otaqları, oyun və tədbir zalları, mətbəx, camaşırxana və anbar vardır. Uşaqların tərbiyəsinə, sağlamlığına və qidalanmasına ciddi diqqət yetirilir.

Valideyn Günay Nağıyeva zabit-gizir ailələri adından minnətdarlıq edərək demişdir ki, yeni uşaq bağçasının istifadəyə verilməsi zabit-gizir ailələrinə göstərilən qayğının daha bir ifadəsidir. Yaradılan şərait uşaqların məktəbəqədər təlim-tərbiyəsinin yüksək səviyyədə təşkilinə və onların sağlamlığının qorunmasına imkan verəcəkdir.

Ali Məclisin Sədri məktəbəqədər tərbiyənin düzgün təşkili, uşaqların qidalanması və sağlamlığının qorunması barədə tapşırıqlar vermişdir.

Tədbirlər zalında uşaqlar Azərbaycan Respublikasının Dövlət Himnini ifa etmiş, Vətənimizə, ulu öndər Heydər Əliyevə həsr olunmuş şeirlər söyləmiş, mahnılar oxumuşlar.

Ali Məclisin Sədri uşaqlara hədiyyələr təqdim etmiş, onlarla xatirə şəkli çəkdirmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Psixi və Ağciyər Xəstəlikləri dispanserlərinə, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərinə bayram sovqatı aparılmışdır





Muxtar respublikada xüsusi diqqətə ehtiyacı olan insanlarla bayram günlərində həmrəylik nümayiş olunur, onlara sovqatlar aparılır.

Dekabrın 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Psixi Xəstəliklər Dispanserinə gəlmiş, səhiyyə ocağındakı xəstələri və tibb işçilərini Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik edərək demişdir: Xəstəliklərin vaxtında aşkar olunması və qarşısının alınması cəmiyyətin hər bir üzvünün sağlamlığının qorunmasına xidmət edir. Ona görə də muxtar respublikada xəstəliklərin qarşısının alınması istiqamətində ardıcıl tədbirlər görülür. Psixi və Ağciyər Xəstəlikləri dispanserlərinin, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərinin müasir binalarda fəaliyyət göstərməsi, lazımi tibbi avadanlıqlar və dərman vasitələri ilə təmin olunması da bu sahədə görülən işlərin davamıdır. Səhiyyə müəssisələrinin fəaliyyəti bundan sonra da daim diqqət mərkəzində saxlanacaqdır. Həkim və tibb işçiləri səhiyyə maarifi işinə diqqəti artırmalı, xəstələrə hərtərəfli tibbi xidmət göstərməli, onlar cəmiyyətin sağlam üzvünə çevrilməlidirlər.

Ali Məclisin Sədri Psixi və Ağciyər Xəstəlikləri dispanserlərinin, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərinin kollektivlərinə çətin və şərəfli işlərində uğurlar arzulamışdır.

Həkim və tibb işçiləri yaradılan şəraitə və göstərilən diqqətə görə minnətdarlıq etmişlər.

Sonra Ali Məclisin Sədri tibbi xidmətin təşkili ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, Psixi və Ağciyər Xəstəlikləri dispanserləri, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzləri vaxtlı-vaxtında dərman vasitələri ilə təmin olunur. Muxtar respublikada bu kateqoriyadan olan xəstələrin qeydiyyata alınması və tibbi müayinədən keçirilməsinə ciddi diqqət yetirilir. Tibbi xidmətin düzgün təşkilinin və aparılan səhiyyə maarifi işinin nəticəsidir ki, muxtar respublikada psixi, onkoloji və yoluxucu xəstəliklərin sayında azalma müşahidə olunur.

Sonra Naxçıvan Muxtar Respublikası Psixi və Ağciyər Xəstəlikləri dispanserlərində, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərində müalicə alan xəstələrə və tibb işçilərinə 500-ə yaxın hədiyyə paketi paylanılmış, gətirilmiş ərzaq məhsulları anbarlara təhvil verilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan şəhərində Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı qeyd olunmuşdur





2016-cı ildə Azərbaycan dövlət müstəqilliyinin 25-ci ildönümünü qeyd etdi. Müstəqillik illərində ölkəmiz sürətlə inkişaf etmiş, dünya dövlətləri sırasında öz layiqli yerini tutmuşdur. Ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin ölkə Prezidenti tərəfindən uğurla davam etdirilməsi Azərbaycanı əsl inkişaf və tərəqqiyə qovuşdurmuşdur. Naxçıvan Muxtar Respublikası da müstəqillik illərində böyük inkişaf yolu keçmişdir. 2016-cı ildə muxtar respublikada quruculuq işləri aparılmış, yeni sosial obyektlər, inzibati binalar, yaşayış kompleksləri, təhsil, səhiyyə, mədəniyyət müəssisələri, hərbi obyektlər tikilərək istifadəyə verilmiş, yollar çəkilmiş, tarixi abidələrimiz bərpa olunmuşdur. Quruculuq və inkişaf yeni ildə daha böyük uğurların qazanılacağından xəbər verir.

Naxçıvan şəhərində və rayon mərkəzlərində 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramının qeyd olunması üçün hazırlıq işləri görülmüşdü. Naxçıvan şəhərinin mərkəzi meydanında yolka qurulmuş, şəhər bayram libasına bürünmüşdü.

Dekabrın 31-də axşam saatlarından başlayaraq Heydər Əliyev prospektindəki mərkəzi meydanda bayram şənliyi təşkil olunmuş, Vətənimizi, həmrəyliyi, yeni ili tərənnüm edən mahnılar səslənmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ailə üzvləri ilə birlikdə bayram şənliyinə gəlmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Azərbaycan xalqına televiziya vasitəsilə təbriki mərkəzi meydanda quraşdırılan monitor vasitəsilə yayımlanmışdır.

Gecə saatlarında Naxçıvan şəhərinin mərkəzi meydanında möhtəşəm bayram atəşfəşanlığı olmuş, sakinlər və şəhərimizin qonaqları həmrəylik bayramını və yeni ilin gəlişini elliklə, böyük ruh yüksəkliyi ilə qarşılamışlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvanda bayram şənlikləri keçirilmişdir





Hər açılan səhərin, qarşılanan yeni ilin insan həyatına xoş ovqat bəxş etməsi həm də ölkədəki inkişaf və sabitliklə bağlıdır. Bu gün doğma Azərbaycanımız və onun Naxçıvan Muxtar Respublikası hərtərəfli inkişaf edir, insanlar rahat və firavan yaşayır. Bu inkişaf və tərəqqinin nəticəsidir ki, muxtar respublika sakinləri 2017-ci ili sevinc və fərahlə, qurub-yaratmaq əzmi ilə qarşılayırlar.

Yanvarın 1-də Naxçıvan şəhərinin Heydər Əliyev prospektindəki mərkəzi meydanda yeni ilin gəlişi münasibətilə bayram şənliyi təşkil olunmuşdur.

Bayram şənliyində mahnılar səslənmiş, Naxçıvan Dövlət Uşaq Teatrı aktyorlarının ifasında səhnəciklər təqdim edilmişdir. Meydanda muxtar respublikada fəaliyyət göstərən istehsal və xidmət müəssisələri tərəfindən əhaliyə ictimai-iaşə xidmətləri də göstərilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bayram şənliyində iştirak etmiş, ictimai-iaşə xidmətinin təşkili ilə maraqlanmışdır.

Ali Məclisin Sədri sakinlərin bayramını təbrik etmiş, uşaqlara hədiyyələr vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Xalqa, dövlətə xidmət nümunəsi



*Bu il Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 120 illik yubileyi ölkəmizdə dövlət səviyyəsində qeyd olunur. Əziz Əliyevin 120 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2016-cı il noyabrın 18-də Sərəncam imzalamışdır. Sərəncamda deyilir:* ***"Əziz Əliyev müxtəlif məsul vəzifələrdə çalışaraq dövlət idarəçiliyinin təkmilləşdirilməsində səmərəli fəaliyyət göstərmiş, respublikada səhiyyə sisteminin və tibb təhsilinin formalaşdırılmasına layiqli töhfələr vermişdir. Onun İkinci Dünya müharibəsi illərində apardığı işlər mühüm hərbi-siyasi əhəmiyyətə malikdir. Azərbaycan və Dağıstan xalqları arasında dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi Əziz Əliyevin adı ilə sıx bağlıdır".***

XX əsrdə Azərbaycan xalqının yetişdirdiyi görkəmli şəxsiyyətlərdən biri olan Əməkdar həkim, tibb elmləri doktoru, professor Əziz Əliyev dərin ağıl və düşüncəyə, rəhbərlik etmək qabiliyyətinə və zəngin həyat təcrübəsinə malik idi. Əziz Əliyev 1897-ci il yanvar ayının 1-də qədim Azərbaycan torpağı olan İrəvan quberniyasının Hamamlı kəndində anadan olmuşdur. İlk təhsilini doğulduğu kənddə almış, 1908-ci ildən sonra isə Rusiyanın Çita şəhərindəki gimnaziyada oxumuşdur. 1914-1917-ci illərdə İrəvan kişi gimnaziyasında təhsil alan Əziz Əliyev buranı əla qiymətlərlə bitirdikdən sonra Rusiyanın Sankt-Peterburq şəhərindəki Hərbi Tibb Akademiyasına qəbul edilmişdir. 1918-ci ildə İrəvana gələn Əziz Əliyev burada dəhşətli mənzərə ilə üzləşmiş, erməni daşnaklarının amansız qəddarlıqlarına tab gətirməyib ailəsini çətinliklə Naxçıvanın Şərur rayonuna gətirmiş, bir müddət sonra Şahtaxtı kəndinə köçmüşdür.

Ailənin ağır vəziyyəti və ermənilərin törətdikləri qırğınların fəlakətli nəticələri Əziz Əliyevin Sankt-Peterburqa qayıdaraq təhsilini davam etdirməsinə imkan verməmişdir. O, 1923-cü ilin may ayına qədər kənddə orta tibb işçisi, həkim köməkçisi kimi çalışmışdır.

1923-cü ilin mayında Əziz Əliyev Bakıya köçmüşdür. Bundan sonra onun həyatının yeni mərhələsi başlanmışdır. Bakıda ilk vaxtlar Azərbaycan SSR Xalq Komissarları Şurasında iş icraçısı, həmin idarənin Ümumi şöbə müdirinin müavini, katibin müavini və nəhayət, respublika Xalq Komissarları Şurasının katibi vəzifələrini icra etmişdir. O, bu çətin və məsuliyyətli vəzifələrdə çalışmaqla yanaşı, 1923-cü ildən etibarən yarımçıq qalmış ali tibb təhsilini də indiki Bakı Dövlət Universitetinin Tibb fakültəsində davam etdirmiş, 1927-ci ildə universiteti bitirərək Daxili xəstəliklər kafedrasında işləməyə başlamışdır. Əziz Əliyev həmin kafedrada əvvəl ordinator, sonra isə aspirant, assistent və dosent kimi fəaliyyət göstərmiş, 1929-1932-ci illərdə isə Azərbaycan Klinik İnstitutunun rektoru olmuşdur.

Əziz Əliyev Azərbaycanda səhiyyə işinin təşkilinə xüsusi diqqət yetirmiş, onun bu sahədəki əvəzsiz xidmətləri tarixə qızıl hərflərlə həkk olunmuşdur. O, Xalq Səhiyyə Komissarlığı Müalicə şöbəsinin müdiri, Bakı Səhiyyə Şöbəsinin müdiri, Xalq Səhiyyə Komissarlığında müavin, xalq səhiyyə komissarı və digər vəzifələrdə çalışarkən respublikanın bütün rayonlarını qarış-qarış gəzmiş, bu sahədə problemlərin aradan qaldırılması üçün əməli tədbirlər görmüşdür. Həm özünə, həm də başqalarına qarşı son dərəcə tələbkar olan Əziz Əliyev bütün həyatı boyu ölkəmizdə tibb elminin inkişafına, yüksəkixtisaslı kadrların hazırlanmasına çalışmışdır. Azərbaycan həkimlərinin ustad müəllimi hesab edilən görkəmli alimin həyatının Azərbaycan Tibb Universiteti ilə bağlı parlaq səhifələri respublikanın tibb ictimaiyyəti, səhiyyə işçiləri, professor-müəllim heyəti və tələbə kollektivi üçün nümunə olacaq böyük bir ömür yoludur.

1930-cu il iyun ayının 19-da indiki Bakı Dövlət Universitetinin Tibb fakültəsinin bazası əsasında Azərbaycan Dövlət Tibb İnstitutunun (ADTİ) yaradılması və bundan sonrakı çətin mərhələlərdə instituta rəhbərlik etmək böyük cəsarət tələb edirdi. Əziz Əliyev bu illərdə ADTİ-nin yaradılmasının təşkilati işlərinin yerinə yetirilməsində mühüm xidmətlər göstərmiş, 1932-ci il iyunun 1-dən etibarən həmin institutun rektoru vəzifəsində çalışmağa razılıq vermişdir.

Həmin illərdə bir tərəfdən respublikada yüksəkixtisaslı həkimlərin hazırlanmasına ciddi ehtiyac duyulması, digər tərəfdən də onların hazırlığını təmin edə bilən kadr çatışmazlığı, Azərbaycan dilində tibbi ədəbiyyatın və dərs vəsaitlərinin azlığı, tədris bazalarının zəifliyi, kitab fondunun lazımi səviyyəyə çatdırılmaması və digər məsələlər həllini gözləyən problemlər idi. Bu problemlərin aradan qaldırılması üçün Əziz Əliyev yorulmadan çalışmış, azərbaycanlı kadrları işə cəlb edərək onların fəaliyyət dairəsini genişləndirmiş və beləliklə, ana dilində dərsliklər, dərs vəsaitləri, monoqrafiya və tövsiyələrin yazılmasına nail olmuşdur. Məhz bu səylərin nəticəsi olaraq, 1932-1935-ci illər ərzində Əziz Əliyevin rəhbərliyi altında Azərbaycan dilində 55 adda dərslik və dərs vəsaiti tərtib edilərək tibb təhsili alan tələbələrin istifadəsinə verilmişdir. Bu, o dövrün texniki imkanları müqabilində çox böyük göstərici idi.

Əziz Əliyev hansı ictimai, inzibati, təşkilati işdə çalışmağından asılı olmayaraq, elmi axtarışlarını bir an belə dayandırmamışdır. İnstitutu bitirəndən iki il sonra – 1929-cu ildə namizədlik, 5 il sonra isə doktorluq dissertasiyalarını uğurla müdafiə etmişdir. O, 1941-ci il mayın 13-də SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının Rəyasət Heyəti nəzdində təşkil edilmiş Elmi Şuranın üzvü, 1956-cı ildə isə professor vəzifələrinə seçilmişdir.

Görkəmli alim 87 elmi əsərin müəllifidir. Bu əsərlərin böyük bir hissəsi təbabətin ayrı-ayrı sahələrinə, bir qismi isə tarixi və siyasi problemlərə həsr olunmuşdur. Onun elmi fəaliyyəti çoxşaxəli idi. Təsadüfi deyil ki, akademik Mustafa bəy Topçubaşov Əziz Əliyevi Azərbaycan səhiyyəsinin inkişaf tarixinin bir mərhələsi adlandırmışdır. Bu mərhələ böyük və məsul bir dövrü əhatə edir. Bu, həmin dövrdür ki, səhiyyə sahəsində böyük və genişmiqyaslı işlər görülür, beləliklə, Azərbaycanın səhiyyəsi dirçəlir, milli kadrların böyük dəstəsi hazırlanırdı.

Elmi-pedaqoji fəaliyyəti ilə yanaşı, görkəmli alimin ictimai fəaliyyəti də Vətənə, xalqa sədaqətlə xidmətdən ibarət olmuşdur. O, 1941-1942-ci illərdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, 1942-1948-ci illərdə isə Dağıstan MSSR Vilayət Partiya Komitəsinin birinci katibi vəzifələrində çalışaraq özünü bacarıqlı dövlət xadimi kimi göstərə bilmişdir. Əziz Əliyev 1950-1951-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti Sədrinin birinci müavini, sonrakı illərdə Azərbaycan SSR Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru, həmçinin Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru vəzifələrində işləmişdir. Görkəmli dövlət xadimi I-II çağırış SSRİ Ali Sovetinin deputatı seçilmiş, həmçinin Azərbaycan SSR Ali Sovetinin I-III çağırış, Dağıstan MSSR Ali Sovetinin II çağırış deputatı olmuşdur.

Əziz Əliyev Vətən və xalq qarşısındakı xidmətləri görkəmli həkim və alim, əla səhiyyə təşkilatçısı, səriştəli rəhbər və təcrübəli dövlət xadimi kimi yüksək qiymətləndirilmişdir. O, "Qırmızı Əmək Bayrağı" ordeni, "I dərəcəli Vətən müharibəsi" ordeni, "Səhiyyə əlaçısı" döş nişanı, bir çox medallar və fəxri fərmanlarla təltif edilmişdir. 1960-cı ildə görkəmli alimə "Azərbaycan SSR-in Əməkdar həkimi" fəxri adı verilmişdir. Rektoru olduğu Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, Bakının mərkəzi küçələrindən biri, Mahaçqalada bir küçə görkəmli dövlət və elm xadiminin adını daşıyır.

Professor Əziz Əliyevin sevimli həyat yoldaşı Leyli xanımla birgə böyütdükləri övladları valideyn tərbiyəsinə layiq və sadiq olmuşlar. Ən əhəmiyyətlisi də odur ki, onlar atalarının himayəsinə arxalanmadan, heç kimdən kömək gözləmədən istedadları, bacarıqları hesabına ucalmış və hər biri öz peşəsi sahəsində böyük nailiyyətlər qazanmışdır.

1998-ci il may ayının 14-də görkəmli alim, ictimai xadim Əziz Əliyevin anadan olmasının 100 illik yubileyi dövlət səviyyəsində qeyd olunmuşdur. Yubiley tədbirində çıxış edən ümummilli liderimiz Heydər Əliyev alimin şəxsiyyətini yüksək qiymətləndirərək demişdir: ***"Əziz Əliyev Azərbaycan xalqının görkəmli nümayəndələrindən biridir. O lap əvvəldən qeyri-adi insan idi. O həm həkim, həm alim, həm də səhiyyə təşkilatçısı idi. O, dövlət xadimi, nazir, çətin illərdə Azərbaycanın rəhbərlərindən biri, XX əsrin ən ağır illərində Dağıstanın birinci rəhbəri idi, Moskvada, sonra isə Azərbaycanda məsul işdə çalışmışdı. Ancaq eyni zamanda onun həyatı heç də asan keçmirdi, maneələrlə, çətinliklərlə, özünə qarşı edilən bir çox haqsızlıqlarla rastlaşırdı. Amma bunların hamısını aradan qaldırır və yolundan dönmürdü".***

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu elmin himayə olunması, xalqımızın dövlət və elm xadimlərinin elmi və nəzəri irslərinin yaşadılması ideyasının davamı olaraq ölkə Prezidenti cənab İlham Əliyev 2006-cı il dekabr ayının 5-də "Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 110 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır. Görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 110 illik yubileyi Naxçıvan Muxtar Respublikasında da geniş qeyd olunmuşdur. Yubiley tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov professor Əziz Əliyevin keçdiyi həyat yolunu nəsillərə nümunə kimi dəyərləndirərək demişdir: ***"Əziz Əliyev dərin biliyə, yüksək təşkilatçılıq qabiliyyətinə malik bir insan kimi nəinki səhiyyəmizin inkişafına böyük töhfələr vermiş, eyni zamanda dövlət idarəçiliyində kadrlarla işləməyin, kütləni səfərbər etməyin, rəhbər-xalq münasibətlərinin bu gün də etalon ola biləcək ictimai praktikasını yaratmış, Azərbaycan elminin yeni istiqamətlərini müəyyənləşdirmiş, bu sahələrin inkişafına nail olmuşdur. Əziz Əliyevin həyatını və fəaliyyətini əks etdirən tarixi sənədləri izlədikcə onun dərin təfəkkürünə, işgüzarlığına, ağır sınaqlardan mətanətlə çıxmasına heyran qalmamaq mümkün deyil. Bu böyük şəxsiyyətin bütün fəaliyyəti xalqa layiqli xidmət nümunəsi idi".***

Böyük alim, görkəmli dövlət xadimi Əziz Əliyevin xatirəsi muxtar respublikada əbədiləşdirilmiş, Naxçıvan şəhərindəki küçələrdən birinə və Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasına alimin adı verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 120 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" 2016-cı il 21 noyabr tarixli Sərəncam imzalamışdır. Tədbirlər Planına əsasən, 2017-ci ildə muxtar respublikamızda bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur.

*65 illik bir ömür yaşamış Əziz Əliyev bir evə, bir ailəyə, bir ölkəyə sığmayan bəşəri bir şəxsiyyət, dünyanın bütün tərəqqipərvər xalqlarına eyni hörmət və məhəbbətlə yanaşan humanist insan idi. Görkəmli dövlət xadiminin həyatının bütün mərhələləri xalqımıza, dövlətçiliyimizə xidmət nümunəsi olmuşdur.*

**Rəhim RƏHİMOV**
***Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi***

# Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı muxtar respublikanın rayonlarında yüksək əhval-ruhiyyə ilə qeyd olunub

## Şərur rayonu



***Artıq 25 ildir ki, xalqımız Dünya Azərbaycanlılarının Həmrəylik Gününü qeyd edir. Yeni il ərəfəsində keçirilən bu bayram bütün dünyada yaşayan azərbaycanlıların bir bayraq altında birləşən həmrəyliyinin və gücünün göstəricisidir.***

Ötən dövrdə əldə edilən uğurlar xalqımızı daha gözəl günlərə səsləyir, hər kəs yeni ili xoş əhval-ruhiyyə ilə qarşılayır, gələcəyə daha inamla baxır. Builki bayramların böyük şövqlə keçirilməsində ötən illərdə qazanılan nailiyyətlər az rol oynamayıb. Muxtar respublikamızın ən böyük bölgələrindən biri sayılan Şərur rayonu da bu sırada istisna deyil.

Ötən dövr ərzində Şərur rayonu daha da inkişaf edərək yeni mərhələyə qədəm qoyub.

2016-cı ildə Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey üçün yeni tədris korpusu, Arbatan kəndində yeni sosial obyektlər istifadəyə verilib. Eyni zamanda Şərur şəhər 2 nömrəli, Çəmənli kənd tam orta məktəb binalarının, Çəmənlidə həmçinin kənd və xidmət mərkəzlərinin, Arpaçay yaşayış məntəqəsində kənd və xidmət mərkəzlərinin tikintisi, Şərur Rayon Mərkəzi Xəstəxanasının əsaslı təmiri davam etdirilib. Həyata keçirilən tədbirlər əhalinin gün-güzəranını, yaşayış səviyyəsini xeyli yaxşılaşdırıb, onlarda yaşadıqları yurda, torpağa olan sevgini, eləcə də el-obaya olan bağlılığı daha da artırıb. Bunun nəticəsidir ki, Şərur rayonunun sakinləri Dünya Azərbaycanlılarının Həmrəylik Gününü və Yeni ili əldə olunan nailiyyətlərin yaratdığı yüksək əhval-ruhiyyə ilə qeyd ediblər. Şaxta baba və Qar qızın, yaradıcı kollektivlərin çıxışları alqışlarla qarşılanıb. Bayram tədbirində ən çox sevinən isə uşaqlar olublar. Onlar çil-çıraqla bəzədilmiş küknarlar ətrafında rəqs edib, mahnılar oxuyub, şeirlər söyləyiblər.

Rayon Mədəniyyət Evinin "Arpaçay" instrumental, "Şərur gönçələri" və "Şərur" Xalq Yallı ansambllarının ifalarında səslənən musiqi nömrələri və rəqslər tədbir iştirakçılarına xoş ovqat bəxş edib.

## Ordubad rayonu



***31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı Ordubad rayonunda da təntənə ilə qeyd edilib, rayon əhalisi böyük ruh yüksəkliyi ilə Ordubad şəhərində keçirilən bayram tədbirinə qatılıb.***

Rayonun mədəniyyət müəssisələrinin və musiqi məktəbləri kollektivlərinin təqdim etdikləri musiqi nömrələri alqışlarla qarşılanıb. Tədbirdə milli birliyimizə, həmrəyliyimizə, dövlətçiliyimizə, müstəqilliyimizə, doğma yurdumuza həsr olunan şeirlər səsləndirilib, mahnı və rəqslər tədbir iştirakçılarına xoş ovqat bəxş edib, Şaxta baba və Qar qız uşaqlara bayram sovqatı veriblər.

Tədbirin aparıcıları bildiriblər ki, muxtar respublikanın sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən tədbirlər bütün bölgələr kimi, Ordubadın da sosial-iqtisadi inkişafına öz töhfələrini verib, rayon iqtisadiyyatının daha da güclənməsi əhalinin gün-güzəranını xeyli yaxşılaşdırıb. Bölgənin ən ucqar dağ və sərhəd kəndlərinin belə, siması dəyişib, yaşayış məntəqələrində tikinti-quruculuq işləri geniş vüsət alıb.

Yola saldığımız ildə də Ordubad rayonunda tikinti-quruculuq işləri davam etdirilib, yeni bağlar, yaşıllıq sahələri salınıb. Belə ki, 2016-cı ildə Ordubad şəhərində Ordubad dəmiryol sərnişin vağzalı və Ordubad Yol Sahəsinin inzibati binalarında tikinti işləri davam etdirilib, Ordubad Texniki Peşə və Sürücülük Məktəb kompleksi istifadəyə verilib. Şəhərin Mirzə Fətəli Axundov küçəsində 36 mənzilli yaşayış binasında təmir işləri aparılıb.

Yaşayış məntəqələrində aparılan tikinti-quruculuq işlərindən Baş Dizə kəndinə də pay düşüb. Ötən il bu yaşayış məntəqəsində kənd və xidmət mərkəzləri, 156 yerlik məktəb binası inşa edilib.

Bütün bu tədbirlər onu deməyə əsas verir ki, 2017-ci ildə də Ordubad rayonunun davamlı sosial-iqtisadi inkişafı təmin olunacaq, dövlət proqramlarına uyğun olaraq hər bir sahədə yeni layihələr reallaşdırılacaq, rayonda yeni sənaye müəssisələri açılacaq, hər bir rayon sakininin rahat yaşaması üçün görülən işlər davam etdiriləcək.

## Kəngərli rayonu



***Kəngərli muxtar respublikamızın bütün yaşayış məntəqələri abadlaşdırılan ilk rayonudur. Bölgənin abadlaşan sonuncu yaşayış məntəqəsi Yurdçu kəndi olub.***

Ötən il yanvarın 14-də Yurdçu kəndində orta məktəb, kənd və xidmət mərkəzləri üçün binalar, o cümlədən Yurdçu kənd yolu istifadəyə verilib. Quruculuq işləri bununla yekunlaşmayıb. Akademik Zərifə xanım Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbinin binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilib, rayonun Böyükdüz və Xok kəndlərini əhatə edən qapalı suvarma şəbəkəsi işə salınıb.

Əldə olunan nailiyyətlər təkcə iqtisadi sahələri əhatə etmir. Mədəniyyət, təhsil, səhiyyə kimi humanitar sahələr də öz inkişafının yeni mərhələsindədir.

Yanvarın 1-də rayon mərkəzindəki Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə keçirilən şənlikdə 2016-cı ildə rayonda bütün sahələrdə qazanılan uğurlar barədə geniş danışılıb. Bayram tədbirində rayonun musiqi kollektivlərinin səsləndirdikləri mahnılar çoxsaylı tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. Yeni ilin personajları olan Şaxta baba və Qar qızın gəlişi uşaqlara şən əhval bəxş edib, onları sevindirib.

## Şahbuz rayonu



***Dünən muxtar respublikamızın hər yerində olduğu kimi, Şahbuz rayonunda da Yeni il bayramı böyük coşqu ilə keçirilib. Yola saldığımız 2016-cı il Şahbuz rayonu üçün də uğurlu olub.***

Muxtar respublikamızda bütün sahələrdə əldə edilən nailiyyətlər Şahbuzun da inkişafı üçün geniş imkanlar yaradıb, burada həyata keçirilən tədbirlərdən hər bir ailə, hər bir sakin bəhrələnib. Bütün yaşayış məntəqələri artıq abadlığa qovuşmuş Şahbuzun ən ucqar dağ kəndlərinin belə, siması dəyişilib. Artıq tarixdə qalmış 2016-cı ildə Daylaqlıda kənd və xidmət mərkəzləri tikilib, yeni məktəb binası istifadəyə verilib, kənddaxili yollar yenidən qurulub. Kiçikoba-Daylaqlı kənd avtomobil yolu yenidən qurulub, Kiçikobada kənd və xidmət mərkəzləri tikilib sakinlərin istifadəsinə verilib.

Böyük quruculuq və inkişaf yolu keçmiş Şahbuzda təşkil edilən bayram tədbirində insanlar sevinc içində idi. Abadlığı ilə seçilən Şahbuz şəhəri çox gözəl bəzədilmişdi. Şaxta baba, Qar qızın çıxışları uşaqları sevindirib, Şahbuz Rayon Mədəniyyət Evinin "Batabat" ansamblının ifası alqışlarla qarşılanıb.

## Babək rayonu



***Yanvarın 1-də Babək rayonunda da bayram tədbiri keçirilib. Tədbirdə Vətənimizi, yeni ilin gəlişini tərənnüm edən mahnıların səslənməsi, yolka ətrafında Şaxta babanın, Qar qızın, rayon Mədəniyyət Evinin musiqi kollektivlərinin çıxışları şənliyə gələnlərdə xoş ovqat yaradıb, paylanan hədiyyələr balacalara əsl bayram sevinci bəxş edib.***

2016-cı il Babək rayonu üçün də əlamətdar olub. Belə ki, ötən il rayonda tikinti-quruculuq işləri davam etdirilib. 31 min nəfərdən çox əhalinin yaşadığı 7 yaşayış məntəqəsini əhatə edən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun ikinci hissəsi istifadəyə verilib, Gərməçataq kənd avtomobil yolu yenidən qurulub.

Xəlillidə kənd və xidmət mərkəzləri, məktəb binası istifadəyə verilib. Məzrədə kənd və xidmət mərkəzləri, tam orta məktəb binası quruculuq işlərinin davamı kimi kənd sakinlərini sevindirib. Həmçinin Hacıvarda kənd və xidmət mərkəzləri, Badaşqan kəndində isə xidmət mərkəzi tikilərək istifadəyə verilib.Yarımca kəndinə də quruculuq işlərindən böyük pay düşüb. Bu yaşayış məntəqəsində kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası tikilib, kənd tam orta məktəbi isə əsaslı təmir olunub. Kəndin 4700 metr məsafəlik yoluna asfalt salınıb.

Rayon sakinləri bizimlə söhbətlərində ildən-ilə qüdrətlənən Azərbaycan kimi bir ölkənin vətəndaşı olmalarından qürur hissi duyduqlarını dilə gətirdilər. El ağsaqqalları, müəllimlər, həkimlər, evdar qadınlar, xülasə, cəmiyyətin bütün təbəqələrindən olan insanlar bayramların belə yüksək səviyyədə qeyd olunmasına görə dövlətimizə öz minnətdarlıqlarını, arzularını bildirdilər: "Qoy bu əmin-amanlıq, rahat həyat Azərbaycan, eləcə də Naxçıvan üçün əbədi olsun".

## Culfa rayonu

***2017-ci ili Culfa rayonu da böyük nailiyyətlərlə qarşıladı. Ötən il bu bölgəmizdə də geniş quruculuq işləri həyata keçirilib. Rayon iqtisadiyyatının bütün sahələrinin dinamik inkişafı ötən 2016-cı ildə də tikinti-quraşdırma, abadlıq və yenidənqurma işlərinin artmasına, yeni infrastruktur obyektlərinin yaradılmasına imkan verib.***



Əhalisinin 70 faizdən çoxu kəndlərdə yaşayan muxtar respublikamızın digər bölgələrində olduğu kimi, Culfa rayonunda da aqrar bölmənin inkişafı mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılıb, daxili bazarın keyfiyyətli yerli kənd təsərrüfatı məhsulları ilə təmin olunmasına əlverişli şərait yaradılıb. Həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verib, əhalinin məşğulluğu təmin olunub, maddi rifah halı daha da yaxşılaşıb.

Qazanılan uğurlar, əldə edilən nailiyyətlərdən Culfa şəhərində keçirilən bayram şənliyində ətraflı bəhs edilib. Şaxta babanın, Qar qızın, nağıl qəhrəmanlarının, rayon Mədəniyyət Evinin özfəaliyyət və Culfa şəhərindəki uşaq musiqi məktəbi kollektivlərinin iştirakı ilə tamaşa və konsert proqramı təqdim olunub. Nağıl qəhrəmanları ilə görüşən və Şaxta babadan yeni il hədiyyələri alan uşaqlar əsl bayram sevinci yaşayıblar.

Bayram şənliyinin aparıcıları culfalıları əlamətdar bayramlar münasibətilə təbrik edərək 2016-cı ilin Culfa rayonu üçün uğurlu olduğunu vurğulayıblar, sakinlərə yeni ildə ictimai-siyasi, iqtisadi, sosial və mədəni həyatda uğurlar arzulayıblar.

## Sədərək rayonu

***Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Sədərək rayonunda keçirilən bayram şənliyində sərhəd bölgəsinin sakinləri yüksək fəallıqla iştirak ediblər.***



Bayram tədbirində rayon sakinləri ilə söhbətlərimizdən belə nəticəyə gəlmək olar ki, ötən il muxtar respublikamızın bütün bölgələri kimi, Sədərək rayonu üçün də uğurlu, yaddaqalan il olub.

Sədərəklilər keçən əsrin 80-ci illərinin sonu və 90-cı illərinin əvvəllərində düşmənə qarşı göstərdikləri qəhrəmanlıqları ilə dastan yazıblar. Sədərək belə insanların hesabına qorunub, bu gün də qorunur. Özü də yüksək səviyyədə – həm torpaq təəssübünü, yurd sevgisini hər şeydən üstün tutan sədərəklilərin, burada xidməti borcunu yerinə yetirən, sərhəddə ayıq-sayıq dayanan hərbçilərimizin hesabına, həm də dövlətimizin böyük qayğısı gücünə. Sədərəkdə torpaq həm qorunur, həm də becərilir.

Ötən il də iqtisadi, sosial, mədəni sahələrdə sürətlə tərəqqi edən muxtar respublikamızın inkişafında sədərəklilər fəal iştirak ediblər. İl ərzində rayonda tikinti-quruculuq işləri aparılıb, kənd təsərrüfatı sahəsində nailiyyətlər əldə edilib, genişmiqyaslı yaşıllaşdırma tədbirləri həyata keçirilib, dövlət proqramlarının icrası istiqamətində bir sıra işlər görülüb, sahibkarlığın inkişafına diqqət artırılıb, əhalinin məşğulluğu təmin edilib. Təhsil, səhiyyə və digər sahələrdə də uğurlar əldə olunub. Sözsüz ki, həyata keçirilən bütün bu tədbirlər əhalinin həyat şəraitinə də müsbət təsir göstərib. Sədərəklilər inanırlar ki, 2017-ci il də onlar üçün nailiyyətlər ili olacaq.

Bayramlar münasibətilə Heydərabad qəsəbəsində təşkil olunan konsert rayon sakinlərində xoş ovqat yaradıb.

**Xəbərlər şöbəsi**


ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 1